# MÜBARİZ KEŞİKDƏ

18 oktyabr 2018-ci il

Cümə axşamı

№ 41 (3405)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LƏNKƏRAN, ASTARA VƏ LERİK RAYONLARINA SƏFƏRİ






Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran şəhərindəki Heydər Əliyev xatirə parkında ulu öndərin yeni ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Lənkərana səfəri çərçivəsində İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzdə görülən işlərlə tanış olublar.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Oktyabrın 15-də Lənkəran Olimpiya İdman Kompleksinin açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfərləri çərçivəsində Hirkan-Daştatük-Biləsər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər.

Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialının açılışında iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Astara rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev «Astara şəhərinin içməli su təchizatı sistemləri" layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

Sonra Prezident İlham Əliyev Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı elektromobillə kompleksin ərazisini gəzib.

Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Lerik rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Lerik şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyub.

Oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında və «Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edib.

Prezident İlham Əliyev əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sonra Lerikdə Bayraq Muzeyinin, Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının, Qida Təhlükəsizliyi Agentliyinin Qida Təhlükəsizliyi İnstitutunun Lənkəran Regional Sınaq Laboratoriyasının, «Azərişıq" ASC tərəfindən müasir üslubda yeni inşa edilən 110/35/10 kV-luq «Lənkəran-2" yarımstansiyasının açılışlarında və gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QUBA RAYONUNA SƏFƏRİ

Oktyabrın 11-də Quba rayonunun İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti- Çayqışlaq avtomobil yolu istifadəyə verilib. Azərbaycan Prezidenti 11 yaşayış məntəqəsini birləşdirən və uzunluğu 33 kilometr olan yolun açılışını edib.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Kənd Təsərrüfatı Nazirliyinin Qubadakı Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti ilə tanış olublar. Dövlətimizin başçısı və xanımı elmi-tədqiqat institutunun binasında yaradılan şəraitlə maraqlanıblar.

Azərbaycan Prezidenti və birinci xanım həmin gün Quba Rayon Mərkəzi Xəstəxanasının və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan «ABAD" (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin Qubada «ABAD Factory" İstehsalat Kompleksinin, «Qubaekoaqrar" Məhdud Məsuliyyətli Cəmiyyətinin kənd təsərrüfatı mallarının istehsalı zavodunun açılışlarında iştirak ediblər, Gənclər Parkında yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına parkda görülən işlər barədə məlumat verilib.

Oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-luq «Yeni Yaşma" Külək Elektrik Parkının açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba rayonuna səfər çərçivəsində açılışda iştirak ediblər.

Quba şəhərində 100 yerlik «Günəş" körpələr evi-uşaq bağçası açılıb.

Azərbaycan Prezidenti və xanımı açılışda iştirak ediblər.

**Dövlətimizin başçısı oktyabrın 10-da Azərbaycan dəmir yolu nəqliyyatı işçilərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 10-da Şəki "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi haqqında sərəncam imzalayıb.*

❖❖❖❖❖

**Oktyabrın 10-da dövlətimizin başçısı Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Çingiz oğlu Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Oktyabrın 11-də Azərbaycan Prezidenti İlham Əliyev Quba rayonunun Susay-Xınalıq və Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncamlar imzalayıb.*

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 12-də Ağcabədi rayonunun Salmanbəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Ölkəmizin rəhbəri oktyabrın 15-də Lerik və Astara şəhərlərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında sərəncamlar imzalayıb.*

❖❖❖❖❖

**Oktyabrın 15-də ölkəmizin rəhbəri Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun tikintisinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Lerik rayonunun Orand kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.*

❖❖❖❖❖

**Dövlətimizin başçısı oktyabrın 15-də Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Ölkəmizin rəhbəri oktyabrın 15-də Lənkəran rayonunun Şıxakəran kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.*

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 16-da Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun əməkdaşlarının mükafatlandırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Ölkəmizin rəhbəri oktyabrın 16-da Mingəçevir və Sumqayıt Dövlət Dram teatrlarının əməkdaşlarının mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.*

❖❖❖❖❖

**Oktyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev Emin Yaqub oğlu Eyyubovun Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

*Ölkəmizin rəhbəri oktyabrın 16-da Qaya Məmməd oğlu Məmmədovun Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.*

# QÜDRƏTLİ ŞƏXSİYYƏT, DÖVLƏT

Dünyada cərəyan edən iqtisadi böhranlara, siyasi çəkişmələrə, hərbi münaqişələrə və müharibələrə baxmayaraq, Azərbaycan inkişaf, sosial rifah yolu ilə irəliləyir, yerləşdiyi məkanın siyasi və iqtisadi imkanlarından səmərəli şəkildə yararlanaraq dünyanın barmaqla sayılacaq qədər az olan "sabitlik adaları"ndandır.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu siyasət nəticəsində sabitlik ildən-ilə daha da möhkəmlənib, iqtisadi islahatlar daha da sürətlənib...

*Bax səh.2.*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il oktyabr ayının 27-də saat 10:00-da Gəncə Şəhər Baş Polis İdarəsində Gəncə, Göygöl, Samux, Kəlbəcər, Şəmkir, Ağstafa, Tovuz, Gədəbəy, Qazax, Daşkəsən şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# BOYNUMUZDA BİR HEYDƏR ƏLİYEV HAQQI VAR

**Deyilənə görə, tarixin rəvan və öz ahəngi ilə davam edən dövrü heç zaman olmayıb. Əgər hansısa mərhələ belə görünürsə, bu rəvanlığı, bu ahəngi təmin edən yenə də insanın gərgin zəhməti olur. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıtdığı 1993-cü ildəki dövrün çətinlikləri indi də xalqımızın yaddaşındadır. O zaman vəziyyət çox ağır idi. Mərkəzləşdirilmiş təsərrüfat sisteminin dağılmasından sonra öz milli iqtisadiyyat modelini qurmağa hələ də macal tapmayan və saysız-hesabsız sosial-iqtisadi çətinliklərlə üzləşən cəmiyyət nə edəcəyini bilmirdi. Ölkənin taleyini qısa müddət ərzində bir-birinə ötürən təsadüfi insanların səriştəsizliyi ucbatından respublikamız böhran həddinə gəlib çatmışdı. Bu gün qan çanağına dönmüş bir çox Şərq ölkələrində izlədiyimiz faciələrin cücərtiləri o zaman Azərbaycanda müşahidə olunurdu. Respublikamız vətəndaş müharibəsinə sürüklənirdi. Milli varlığımız təhdid altında idi.**

Ulu öndər Heydər Əliyev belə bir məqamda xalqı taleyin ümidinə buraxmadı. Öz həyatını risk altına qoyaraq Azərbaycanın gələcəyi naminə bütün məsuliyyəti üzərinə götürdü. Ona hər addımında dəstək verən, zəkasına, müdrikliyinə güvənən xalqla çiyin-çiyinə çıxdığı dövlət quruculuğu yollarında dəfələrlə sui-qəsd cəhdləri ilə üzləşsə də, müxtəlif təxribatlarla rastlaşsa da, bunların heç biri qətiyyətini sarsıtmadı, onu tutduğu haqq yolundan çəkindirmədi.

Məhz Heydər Əliyevin yüksək əzmi, siyasi iradəsi sayəsində Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi həyata keçirildi.

Baxın, bu gün biz azad və firavan, qüdrətli bir ölkənin xoşbəxt vətəndaşlarıyıq. Xoşbəxtik həm də ona görə ki, bugünkü müstəqil və suveren Azərbaycanın yaradıcısı və qurucusu olan Heydər Əliyevin müasirləriyik. Boynumuzda bir Heydər Əliyev haqqı var. Şəxsən mən bir vətəndaş olaraq illərlə bu haqqa tapınmış, zəngin dövlətçilik təcrübəsini, titanik işgüzar keyfiyyətlərini, ən əsası isə möhkəm siyasi iradəsini adı artıq dünyanın ən inkişaf etmiş ölkələri ilə bir sırada çəkilən azad Azərbaycanımızın tərəqqisinə sərf etmiş bu dahi şəxsiyyəti həmişə minnətdarlıqla yad etmiş, onun görmək istədiyi azərbaycanlı adına layiq olmağa çalışmışam, haqqında özünə layiq böyük bir fikir söyləmək istəmişəm. Amma bu yükün ağırlığını çiyinlərimdə o qədər gerçək hiss etmişəm ki, düşündüklərimi demək üçün köklənə bilməmişəm. Daha doğrusu, buna çətinlik çəkmişəm. Zaman keçib, barəsində yazmaq arzusu bir an belə məni tərk etməyib. Hamımız, hər zaman demişik ki, 1993-cü ildə Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı və bizi bəlalardan xilas etdi. Bəs, kim idi Heydər Əliyev 1993-cü ilə qədər? Bu barədə düşünmüşükmü? Mən bu sualın cavabını yalnız ötən ilin dekabrında "Asayişin keşiyində" jurnalının 2-ci nömrəsində müəllifinin Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun olduğu "Ən böyük Azərbaycanlı" yazısını oxuyanda tapdım, ulu öndərin doğrudan da ən böyük Azərbaycanlı olduğuna bir daha inandım, özümdə cəsarət tapıb ***bütün şüurlu həyatını, yorulmaz fəaliyyətini milli istiqlalımıza, həmrəyliyimizə və qurtuluşumuza həsr etmiş bu dahi şəxsiyyətin barəsində eşitdiklərimi, bildiklərimi çox dəyərli həmkarlarıma çatdırmağı özümə borc bildim.***

*Ardı 3-cü səhifədə.*



# QÜDRƏTLİ ŞƏXSİYYƏT, DÖVLƏT

**Dünyada cərəyan edən iqtisadi böhranlara, siyasi çəkişmələrə, hərbi münaqişələrə və müharibələrə baxmayaraq, Azərbaycan inkişaf, sosial rifah yolu ilə irəliləyir, yerləşdiyi məkanın siyasi və iqtisadi imkanlarından səmərəli şəkildə yararlanaraq dünyanın barmaqla sayılacaq qədər az olan "sabitlik adaları"ndandır.**

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu siyasət nəticəsində sabitlik ildən-ilə daha da möhkəmlənib, iqtisadi islahatlar daha da sürətlənib. Ölkə başçımızın qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaması keçirilib.

Ölkə başçımızın yürütdüyü uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildi: Burda dini-milli zəmində heç vaxt münaqişələr, qarşıdurmalar baş verməyib. Ölkəmizdəki tolerantlıq mühiti, multikultural dəyərlərə sadiqlik qardaşlıq və dostluq mühiti yaradıb.

Prezident cənab İlham Əliyevin mədəniyyət konsepsiyası Heydər Əliyev Fondunun layihələri ilə daha da artaraq, ölkəmizin dünyada təbliğinə geniş imkanlar açıb. Musiqimizin təməl daşı olan muğam artıq dünya musiqisinə çevrilib. "Eurovision" kimi beynəlxalq mahnı müsabiqəsinə ev sahibliyi edən ölkəmiz musiqisi ilə də bütün dünyada tanınıb.

lır.

Dövlətimiz müstəqil siyasət yürüdür, öz siyasi dəst-xətti, inkişaf yolu var. Ölkə başçımızın milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti məhz həyata keçirilən müstəqil siyasətin nəticəsidir. Ölkə daxilində xalqın rifahının yüksəlməsinə və müstəqil dövlətimizin daha da qüdrətlənməsinə hesablanan siyasət ölkə xaricində xalqın milli maraqlarının qorunmasına və Azərbaycanın dünyada söz sahibinə çevrilməsinə xidmət edir.

Ölkə başçımızın milli-mənəvi dəyərlərimizə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas mərkəzlərindən birinə çevirib. Prezident cənab İlham Əliyev ölkəmizin siyasi nüfuzunun yüksəlməsini, beynəlxalq imicinin formalaşmasını daim diqqətində saxlayır. Ölkəmizin ilk dəfə keçirilən I Avropa Oyunlarının təşkilatçısı qismində çıxış etməsi mühüm hadisə olaraq tarixə düşüb. Avropa Oyunlarından sonra IV İslam Həmrəyliyi Oyunları, yarım milyarddan çox tamaşaçısı olan "Formula-1" yarışması keçirilib.

Yeri gəlmişkən, respublikamızın iqtisadiyyatı son 15 il ərzində böyük bir inkişaf yolu keçib, 3,2 dəfə artıb. Ölkə Prezidentimizin əsas hədəflərindən biri qeyri-neft iqtisadiyyatın inkişafı məsələsidir və bu sahədə 2.8 dəfə artım qeydə alınıb. Sənayedə artım 2.6 dəfəyə çatıb. Əsas prioritet sahələrdən biri kənd təsərrüfatının inkişafıdır ki, bu istiqamətdə də 1.7 dəfə artım qeydə alınıb. Ölkə başçımız ixrac yönlü iqtisadiyyatının inkişafını əsas hədəflərdən biri kimi seçib və bunun sayəsində son 15 il ərzində qeyri-neft ixracatı 4.1 dəfə çoxalıb. 2003-cü ildə ölkəmizin valyuta ehtiyatları 1.8 milyard dollar təşkil edirdisə, bu gün 45 milyard dollardır.

Bunlar çox böyük nailiyyətlərdir. Sabitlik və təhlükəsizlik mühiti ona gətirib çıxarıb ki, son 15 ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq investisiya qoyulub, bunun da yarısını məhz xarici investisiya təşkil edib.

**Bütün sadalananlar və bundan dəfələrlə çox olan uğurlarımız hər il, hər gün bir daha sübut və təsdiq edir ki, Azərbaycan ulu öndərimizin müəyyən etdiyi inkişaf və tərəqqi yolunda öz qüdrətli Prezidentinin rəhbərliyi ilə inamla, İlhamla irəliləyir.**

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# BİR PAYIZ DA GƏLDİ, BİR QIŞ DA KEÇƏCƏK...

**Oktyabrın 29-da Zəngilanın Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilməsinin 25 ili tamam olur.**

1988-ci ildən 1993-cü ilin noyabrınadək düşmənə baş əyməyən, ardı-arası kəsilməyən hücumlara sinə gərən, şəhidlər verən Zəngilan sonunda heydən düşdü. Qubadlının və Cəbrayılın işğalı nəticəsində mühasirədə qalan rayon əhalisi çıxış yolunu Araz çayından İran ərazisinə keçməkdə gördü. Əks-təqdirdə ikinci Xocalı hadisəsinin baş verməsi qaçılmaz olacaqdı.

Zəngilanlıların dəmir iradəsini, havadan asılı ümidlərini düşmən «qrad»ları atəşə tutdu.

İndi 25 ildir ki, bahara həsrət, nisgil, qüssə çəkən Zəngilan tarixinin ən uzun payızını yaşayır.

Zəngilan müharibədə 188 şəhid verdi, 44 sakini itkin düşdü…

Zəngilan təkcə tarixi, coğrafi mövqeyi ilə deyil, həm də torpağı, iqlimi ilə seçilib. Avropada birinci, dünyada ikinci olan Çinar meşəsi məhz Zəngilandaydı. Yaşı yüz illərlə ölçülən bu çinar ağaclarını da artıq qətl edib düşmən. 2270 metr yüksəkliyində Şükrətaz dağı, çiyin-çiyinə dayanan Əsgülüm, Susənin zirvələrinə qədər uzanıb gedən dağ silsilələri, meşələr qızmar yay günlərində insanların əsl istirahət guşələri idi. Bu dağ və yamacların can dərmanı olan zoğalı, əzgili, qaragiləsi, böyürtkəni, alçası, armudu, fındığı, cevizi təbiətin payı idi. Zəngilan yeraltı sərvətləri ilə də seçilib. Burada zəngin qızıl, qara mərmər yataqları, təbaşir çöküntüləri, əhəng xammalı, tikinti daşı vardı...

***Daha bir payız gəldi ömrümüzə. Daha bir payız döydü qismətimizin qapısını. Amma Zəngilan 25 il öncənin, 25 ilin qoca payızını yaşayır hələ…***

***Deyirlər ki, hər gecə bir sabaha açılır, hər qış bir bahara dönür. Bəs, payız? Bəlkə də bu qədər uzun ayrılıqdan sonra Zəngilan da payızı da, elə qışı baharına yol eliyəcək…***

Bir payız da gəldi, bir qış da keçəcək, inşallah…

*Ə.Ruhiyyə*

# İLİN UĞURLARI, VƏZİFƏLƏRİ

**Xəbər verildiyi kimi, oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasda görülən işlərə yekun vurulub, ölkə həyatı üçün bir çox aktual məsələlərə, o cümlədən çatışmazlıq və nöqsanlara toxunulub, qarşıda duran vəzifələr müəyyənləşdirilib, tövsiyələr verilib.**



İlin 9 ayının yekunları barədə danışan ölkə rəhbəri bildirmişdir ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olmuşdur, qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır. Azərbaycan Prezidenti giriş nitqində vurğulamışdır ki, dünyada bugünkü vəziyyəti nəzərə alsaq, ***sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində düşünülmüş siyasət dayanır, eyni zamanda, xalq tərəfindən bu siyasətə göstərilən dəstək dayanır.*** Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Belə olan vəziyyətdə biz, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Lakin Azərbaycanda daxili risklər mənbəyi yoxdur və görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq və qoruyacağıq.

2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Amma əgər güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. İqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Ölkəmiz iqtisadi cəhətdən kimdənsə asılı olsaydı, belə imkanlar məhdud ola bilərdi.

Doqquz ayda iqtisadiyyatımız, yəni ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır.

Son illərdə kənd təsərrüfatının inkişafına, xüsusilə bölgələrdə məşğulluğun artırılmasına böyük diqqət, qayğı və dəstək göstərilir. Kənd təsərrüfatının ardıcıl artımını görürük. Bildirilib ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb.

İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. Gəlirlər inflyasiyanı üstələyir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcək.

Valyuta ehtiyatları artır. Bu gün valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri əlavə 3 milyard dollar yığmışıq. Bu, bir daha onu göstərir ki, biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda, ehtiyatlarımızı da artırırıq.

Dövlət rəhbərimiz doqquz ayda xarici ticarət dövriyyəsindən danışarkən deyib ki, bu sahədə artım 37 faizdir. İxrac da təxminən bir o qədər artıb. Qeyri-neft ixracı isə təxminən 14 faiz artıb. Bu ilin doqquz ayında ölkəmizdə 85 min daimi iş yeri açılmışdır.

***«Bax, budur, sosial-iqtisadi inkişafımızın əsas göstəriciləri. İstənilən mötəbər beynəlxalq maliyyə qurumu bu nəticələri görərkən bir qənaətə gələ bilər ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Azərbaycanda çox düşünülmüş iqtisadi siyasət aparılır. Azərbaycan iqtisadiyyatı qarşısında gələcəkdə heç bir ciddi problem yoxdur. Sadəcə olaraq, biz gərək bu sahədə öz islahatlarımızı davam etdirək».***

Azərbaycan Prezidenti bu məqama diqqət çəkərək vurğulayıb ki, ölkəmizin uğurlu inkişafı üçün yerli istehsalın artması ən önəmli amillərdən biridir. Dövlətin dəstəyi ilə bu istiqamətdə bir çox layihələr icra edilir. O cümlədən dövlətin birbaşa maliyyə dəstəyi ilə böyük, müəssisələr yaradılır. Bu il polipropilen zavodunun açılışı çox əlamətdar hadisədir. İlin sonuna qədər "SOCAR Polymer"in ikinci layihəsi – yüksəksıxlıqlı polietilen zavodu da istifadəyə veriləcək. Bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur. Yaxın gələcəkdə Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavodu istifadəyə veriləcək. Bu zavoda çox böyük sərmayə - 6 milyard dollardan çox vəsait qoymuşuq. Biz oradan hər il yüz milyonlarla dollar gəlir götürəcəyik. Bu ilin may ayında Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu. Bu, tarixi hadisədir. Bir ay sonra Türkiyədə TANAP layihəsinin açılışını etdik və "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bütün bu dörd layihənin hamısında çox gözəl nəticələr var. İlin doqquz ayının yekunları haqqında danışarkən Ələt Beynəlxalq Dəniz Ticarət Limanını qeyd etməmək mümkün deyil. Bu da tarixi layihədir, Xəzər dənizinin ən böyük limanıdır. Ölkəmizin rəhbəri giriş nitqində deyib:

***- Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Bu gün Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik olan bir ölkədir. Təkcə bizim yaratdığımız imkanlara görə yox, eyni zamanda, bəlkə də, ilk növbədə, ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik…***

**Ardı var.**

*R.Əliyeva,*
*polis leytenantı*

# BOYNUMUZDA BİR HEYDƏR ƏLİYEV HAQQI VAR

***Rahib Qarayev,***
***DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki***

*Əvvəli 2-ci səhifədə.*

Bəri başdan deyim ki, təqdim etdiyim bu yazıda mənbə kimi millət vəkili, tarix elmləri doktoru, professor Musa Qasımlının illər öncə yazdığı monoqrafiyadan, "Azərbaycan" qəzetindən və "Asayişin keşiyində" jurnalından istifadə etmişəm.

**Buyurun, bu Böyük Azərbaycanlını bir az da yaxından tanıyın və qürur duyun!**

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə Heydər Əlirza oğlu Əliyev təyin edildikdən sonra milli düşüncəli ziyalıların yaradıcılıq fəaliyyəti üçün respublikada əlverişli şərait yaranmağa başladı. Millətsevərlik fəaliyyətləri üstündə təqiblər, demək olar ki, dayandırıldı. Buna baxmayaraq, respublikada vəziyyət heç də yaxşı deyildi. Hakimiyyət daxilində intriqalar hökm sürür, respublikanın iqtisadiyyatı geri gedirdi. Moskva Azərbaycana yeni bir rəhbərin təyin edilməsi barədə düşünürdü. Bu zaman Heydər Əliyevdən savayı Azərbaycana rəhbərlik edəcək güclü namizəd yox idi. 1969-cu ilin iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə xalqın tarixində keyfiyyətcə yeni mərhələ başlandı. Bununla da o, Azərbaycanda partiya, dövlət, təsərrüfat idarəçiliyinə yeni nəfəs, yeni iş metodu, ciddiyət gətirdi. Yeni rəhbərin atdığı addımlar xalqla hakimiyyət arasında və hakimiyyət daxilində o zamanadək heç vaxt mövcud olmayan birliyin yaradılması yolunda ciddi bir strateji məqsədin, iradənin ortaya qoyulması demək idi. Azərbaycan xalqının uğurlu inkişafını və tərəqqisini milli birlikdə görən Heydər Əliyev hakimiyyəti illərində məhz buna nail olaraq geniş planlarını həyata keçirməyə başladı. O, ciddi, eyni zamanda qayğıkeş idi.

Azərbaycan xalqı Heydər Əliyevin rəhbərliyi altında siyasi hakimiyyət ətrafında sıx birləşərək heç bir şüar, yersiz kəlmə işlətmədən, ehiyatla müstəqil dövlət quruculuğu üçün lazım olan daxili və beynəlxalq şərtləri ümumi sovet sistemində tədricən hazırlamağa və tarixən qarşıda duran ümumilli problemləri həll etməyə başladı. Azərbaycan istiqlalının təməllərini təşkil edən həmin şərtlərin Heydər Əliyevin respublikanın kommunist lideri olmasına baxmayaraq, mahiyyətcə millətsevərlik baxışları və dövrün reallığını nəzərə alaraq yeritdiyi praqmatik siyasəti nəticəsində formalaşdırıldığına şübhə yoxdur.

Heydər Əliyev öz həyat prinsipləri uğrunda axıradək cəsarətlə mübarizə aparan, mövcud şəraiti bütün tərəfləri ilə soyuqqanlıqla, xırdalığına qədər dərindən təhlil edərək doğru qiymətləndirən, populizmdən uzaq, xalqın mövcud və gələcək istəklərinin yerinə yetirilməsinə yönəlmiş konkret işlər görən böyük dövlət və partiya xadimi idi. O, xalqını düşündürən problemləri böyük əzm, iradə və bacarıqla həll edir, icrası mümkünsüz hesab edilən işləri heyrətamiz məharətlə reallaşdırırdı.

Sovet dövründə Heydər Əliyev yalnız kommunist lider və dövlət xadimi olaraq təqdim olunub. ***Onun milli ruhu, millətin gələcək müstəqilliyi, Azərbaycan xalqının milli-mədəni intibahı naminə gördüyü işlər barədə isə az yazılıb.***

Xarici ölkə tarixçilərinin qeyd etdiyi kimi, Azərbaycanda hakimiyyətə gəldikdən 7 il sonra- 1976-ci ildə Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə büro üzvü seçilməsi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi ilə Heydər Əliyevin həm xalq içərisində, həm də ölkənin siyasi rəhbərliyində mövqeləri xeyli möhkəmləndi. O, özünə inamı, siyasi məsələləri həll etmək bacarığı, praktikliyi, fiziki və intellektual imkanları, hətta zahiri görünüşü ilə Kremlə kişilik potensialı gətirdi. Hündür, enlikürək, ağıllı, gözəl hərbi karyerası olan, ingilis tipli kostyum geyinən, ipək qalstuk taxan, cazibəli gözləri olan Heydər Əliyev biliyi, işgüzarlığı, yorulmazlığı ilə özünü Siyasi Büronun boss kardinallarına qarşı uğurla qoya bildi.

SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi ilə əlaqədar olaraq 1982-ci il dekabr ayının 2-də Azərbaycan KP MK-nin plenumunda o, Birinci katib və MK Bürosunun üzvlüyündən azad edildi. Bu addım heç şübhəsiz, sovet sistemi şəraitində türk, müsəlman siyasi və dövlət xadimi üçün nadir bir hadisə idi.

ABŞ tarixçisi A.D'Agostino yazmışdır ki, Heydər Əliyev nəinki Moskvada, hətta hələ Azərbaycanda işləyərkən SSRİ-nin Əfqanıstan, Livan, Cənubi Afrika, Mərkəzi Amerika və başqa yerlərdə yeritdiyi siyasətdə mühüm rol oynayırdı. Onun yazdığına görə, Heydər Əliyev müsəlman dünyasının lideri və mahir bilicisi olması ilə SSRİ-nin digər türk və müsəlman respublikalarının rəhbərlərini çox məharətlə geridə qoya bilmişdir.

ABŞ-da nəşr olunan başqa bir kitabda da etiraf edilir ki, Heydər Əliyevin Moskvada hakimiyyətə gətirilməsi ilə sovetlər müsəlman dünyasında itirilmiş mövqelərini qaytarmaqda zahiri görüntü üçün yeni təşəbbüs əldə etdi. Çünki Heydər Əliyev Orta Şərqin kommunist qrupları arasında xeyli məşhur və nüfuzlu idi. Müəllif daha sonra yazır ki, **Heydər Əliyev sovet rəhbərliyində SSRİ müsəlmanları arasında təsirli fiqur, yaxşı inzibatçı, dərin bilikli, şəxsən təmiz, doğru, inadcıl, dözümlü adam olaraq qəbul edilirdi. Müsəlman dünyası Heydər Əliyevlə fəxr edirdi.**

Beləliklə, Heydər Əliyev artıq SSRİ hüdudlarını aşaraq dünya siyasətçiləri və dövlət adamları sırasına möhkəm daxil olmuşdu. Onun Moskvadakı fəaliyyəti daha geniş, ümumittifaq və ümumdünya miqyasını əhatə edirdi. Heydər Əliyev dünyanın fövqəldövlətlərindən birini idarə edən şəxslərdən idi.

Andropov vəfat etdikdən sonra Heydər Əliyevin Sov. İKP MK-nın Baş katibi seçilməsinə və Tixonovdan sonra Baş nazir təyin edilməsinə, ABŞ-da nəşr olunan kitablarda deyildiyi kimi, yalnız qafqazlı və müsəlman olması mane oldu. Andropovun ölümündən bir gün əvvəl Heydər Əliyevin sovet nümayəndə heyətinin rəhbəri olaraq Suriyaya səfərə göndərilməsi də, əsasən, bununla bağlı idi.

Minlərlə insanın taleyi onun qərarlarından asılı idi. O, ciddi dövlət xadimi, hakimiyyət ustası idi. İdarəetmə mexanizmini əla bilirdi. Heydər Əliyev spirtli içkilər içmirdi, ova getmirdi, daim işləyirdi. Moskvadakı mənzilini Şərq üslubunda təmir etdirmiş, hətta bir neçə dəfə divar kağızı təqdim etsələr də, yalnız öz bəyəndiyini seçmişdi. İstirahət üçün Azərbaycana gəlirdi. Səfərlərə gedəndə özü ilə aşbaz, xidmətçi aparmırdı. O, məktəb islahatı, onların kompüterləşdirilməsi, hətta qatarların vaxtında hərəkəti ilə məşğul olurdu. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi Heydər Əliyev xarici qonaqları qəbul edir, səfərlərə gedir, böyük dövlətin qlobal problemlərini həll edirdi. Amerikan tarixçilərinin yazdığı kimi, Kremldə qonaqları qəbul edən Heydər Əliyev onlardan çəkinmir, sərbəst danışır, dünya işlərini dərindən bildiyini nümayiş etdirir, Siyasi Büro üzvlərinə xas olmayan gülümsərliyi, bəzən ürəkdən gülməsi, ünsiyyətcilliyi ilə fərqlənirdi. Onun gülüşləri qələbə gülüşləri idi. Heydər Əliyevin keçirdiyi görüşlərin coğrafiyası xeyli geniş idi. Məsələn, Heydər Əliyev 1983-cü ilin yanvar ayında ABŞ-ın kənd təsərrüfatı naziri C.Blokla danışıqlar aparmışdı. Bir neçə Siyasi Büro üzvü ilə birlikdə Çernobıl qəzasının nəticələrini aradan qaldırmaq barədə Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin birgə qərar layihəsini hazırlamışdı. 30-cu illərdən başlayaraq, Siyasi büronun iclaslarında daim müzakirə edilsə də, tikintisi başa çatdırılmayan, böyük hərbi-siyasi, iqtisadi və strateji əhəmiyyət daşıyan Baykal-Amur magistralı bilavasitə Heydər Əliyevin rəhbərliyi və nəzarəti altında istifadəyə verilmişdir.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev 1982-1987-ci illərdə Moskvada işləyə-işləyə Azərbaycanı diqqətdə saxlayır, problemlərini həll edir, respublikanın maddi-texniki inkişafına, mədəni tərəqqisinə daim qayğı göstərirdi. ***Xalqımızın ulu öndəri Moskvaya işləməyə gedərkən çiçəklənən Azərbaycan qoyub getmişdi. Sonralar Heydər Əliyev deyirdi: "... Moskvada 5 ildən artıq işləyərkən yenə də ümumiyyətlə, Azərbaycana... himayədarlıq etmişəm".***

*Ardı növbəti sayımızda.*

# ƏSRİ HAQLAMAQ VAR QARŞIDA HƏLƏ



**İdarədə bayram əhval-ruhiyyəsi vardı. Düz, beş il öncə də burada belə bir təmtərağın şahidi olmuşdum. Rəisin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Vəli Abbasov: "RPİ-nin Veteranlar Şurasının sədri, polis veteranı Paşa Kərimovun 85 illik yubileyidir",- deyəndə bir anlıq xəyalən 5 il öncəyə qayıtmışdım. İllərin belə tez keçdiyinə ürəyimdə heyfslənmişdim, axı, mənim də yaşımın üstünə beş il gəlmişdi. Amma illər keçsə də xatirələr hər zaman diri qalır, yaddaşa hopur, xatırlanır. Hətta bir şəkil belə könlümüzdə xoş xatirələr oyadır.**

Belədir insan ömrü, su kimi gözlərimizin önündən axıb gedir...

Hamı sevinirdi. Tort gətirən kim, gül gətirən kim. Mənə elə gəldi ki, bu gənclər yaşı, əsri haqlayan, qocaman həmkarımızın bu gün də onlarla birlikdə xidmət etməsinin sevincini yaşayırlar.

"Bu gün təkcə Nərimanov Rayon Polis İdarəsinin yox, rayonumuzun, eləcə də daxili işlər orqanlarının həyatında əlamətdar günlərdən biridir. Ömrünün böyük hissəsini daxili işlər orqanlarına həsr etmiş, üzərinə düşən vəzifələrin öhdəsindən həm bir polis əməkdaşı, həm də vətəndaş kimi layiqincə gəlməyə çalışmış Paşa müəllimin 85 yaşı tamam olur. Ötən illəri mənalı yaşamaq hər kəsə nəsib olmur. Paşa müəllim sanki heç yorulmayıb. O, səhər tezdən işə gəlir, bir də axşam düşəndə gedir. Bu yaşda böyük bir sevgi ilə işə gəlməsi və yorulmadan çalışması onu deyir ki, qəlbində həyat sevgisi hələ qaynayır. Mən onu bizim gənclərimizə misal çəkirəm, ondan öyrənməyi, nizam-intizama məhz onun kimi riayət etməyi tövsiyə edirəm",-deyərək tədbiri bu sözlərlə açan idarə rəisi, polis polkovniki Nəriman İmanov yeri gəlmişkən, ötən dövr ərzində cinayətkarlıqla mübarizədə, gənclərin vətənpərvərlik hisslərinin aşılanmasında, zərərli vərdişlərə, erkən nikahlara və dini radikalizmlə mübarizəyə qarşı məktəblərdə, müxtəlif əmək kollektivlərində keçirilən görüşlərdə veteranların dəstəyini, onların rolunu xüsusi vurğuladı.

Tədbirdə iştirak edən Rayon İcra Hakimiyyətinin nümayəndəsi Hüsü Nuriyev polis veteranlarının ictimaiyyət arasında böyük nüfuz sahibi olduqlarını dedi. Bildirdi ki, polis veteranlarının yaşadıqları ərazidə xoşagəlməz hallara az rast gəlinir. Rayonda keçirilən tədbirlərdə onların öndə olması da diqqətdən yayınmır. Odur ki, Nərimanov rayonunun ictimai-siyasi həyatında fəal iştirakına, gənc polis əməkdaşlarına peşə sirlərinin aşılanmasına kömək göstərdiyinə, yetkinlik yaşına çatmayanlar və gənclər arasında narkomanlığın qarşısının alınması ilə yanaşı, onların zərərli vərdişlərdən yayındırılması yönündə səmərəli fəaliyyətinə görə və anadan olmasının 85 illik yubileyi münasibətilə hörmətli veteranımız Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev tərəfindən Fəxri fərmanla təltif edilib.

Sonra Fəxri fərman yubilyara təqdim olundu.

Tədbirə yekun vuran rəis, polis polkovniki Nəriman İmanov daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsində, hüquqi biliklərin təbliğində, cinayətlərin açılmasında, profilaktikasında, təhlükəsizliyin təminində veteranların təcrübəsindən, ictimai nüfuzundan, bilik və bacarıqlarından bundan sonra da yararlanacaqlarına inamını ifadə etdi.

O, həmkarlarının aldığı qiymətli hədiyyəni və gül dəstəsini yubilyara verərək ona ürəyi istədiyi qədər sağlam ömür arzuladı.

Sonda xatirə şəkli çəkdirildi.

Və bir də bilməyənlər üçün: **Paşa Kərimov** 1933-cü ildə Bakıda doğulub. Orta məktəbi qızıl medalla bitirdikdən sonra Politexnik Texnikumuna qəbul olunub. 1957-ci ildə daxili işlər orqanlarında xidmətə başlayıb. 1964-cü ildə Politexnik İnstitunu fərqlənmə diplomu ilə bitirib. İşlədiyi müddət ərzində 20 DYP postunun, 16 rayonda uşaq şəhərciyinin, BDYPİ-nin inzibati binasının tikintisinin həyata keçirilməsində zəhmət çəkib. 1995-ci ildə polis polkovniki kimi təqaüdə çıxıb.

Dörd övladı, altı nəvəsi, bir nəticəsi var…

*Hafiz Təmirov,*
*polis mayoru*

# GƏLİN, TANIŞ OLAQ

**Nizami rayon 25-ci PŞ-nin rəisi, polis polkovnik-leytenantı Elmir Hüseynovla 2018-ci ilin 9 ayı ərzində şöbənin inzibati ərazisində cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmini sahəsində görülən işlər, qarşıda duran vəzifələr barəsində söhbət etdik.**



Qeyd olundu ki, hesabat dövrü ərzində 203 cinayət baş vermiş, onlardan 164-nün və ya 82 faizinin açılması təmin olunmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 8.7 faiz çoxdur. Qeyri-aşkar şəraitdə baş vermiş cinayətlərin açılması 75 faiz təşkil etmişdir. Həmçinin ağır və xüsusilə ağır cinayətlər 17 fakt azalaraq açılması 78.4, az ağır cinayətlər 19 fakt azalaraq açılması 82.5, böyük ictimai təhlükə törətməyənlər 26 fakt azalaraq açılması 83.3 faiz təmin olunmuşdur. Ümumilikdə DİN və prokurorluq üzrə baş vermiş cinayətlərin sayı 62 fakt azalmışdır.

Geridə qoyduğumuz müddət ərzində narkotik vasitələrlə bağlı cinayətlərin sayı 5 fakt olmuşdur ki, bunlardan 2-i satışla bağlıdır. Dövriyyədən çıxarılmış narkotik vasitələrin ümumi çəkisi 5 kiloqram 304.168 qram olmuşdur. Axtarışda olan 58 nəfər təqsirləndirlən şəxslərdən 39 nəfərinin yəni 67.2 faiznin tutulması təmin edilmiş, itkin düşənlərin hamısı tapılaraq ailələrinə təhvil verilmişdir.

Şöbə rəisi E.Hüseynov onu da qeyd etdi ki, bu nəticələr ayrı-ayrı xidmət sahələrinin qarşılıqlı işinin düzgün təşkil olunması sayəsində mümkün olmuşdur. Gənc əməkdaşlar onlara təhkim olunmuş hami-tərbiyəçilərdən, təcrübəli həmkarlarından, eləcə də ömrünü bu peşəyə həsr etmiş veteranlarımızdan lazımi dəstəklərini alır, bu da onlara xidmətlərini düzgün qurmaqda yardımçı olur.

Yeri gəlmişkən, onlardan bir ilə bizi də tanış etdi.

**Sahə inspektoru, polis leytenantı Hakim Mirzəzadə** 1989- cu ildə Masallı rayonunda anadan olsa da məktəbi Bakı şəhərində bitirib. Hərbi xidməti başa vurduqdan sonra, 2010-cu ildə DİO-a qəbul olunub. Polis zabiti olmaq arzusunu reallaşdırmaq üçün 2012-ci ildə Polis Akademiyasına qəbul olunub. 2017-də təhsilini bitirib indi xidmət etdiyi vəzifəyə təyin olunub. Dediyinə görə, uşaqlığı da bu ərazidə keçdiyindən hər tinə, hər döngəyə bələddir. Ərazini yaxşı tanıması, yorulmadan çalışması onun xidmətdə fəqlənməsinə zəmin yaradıb. İşlədiyi qısa müddət ərzində rayonda rezonans doğurmuş 5 quldurluq hadisəsinin, bir neçə oğurluğun açılmasında onun zəhməti az olmayıb. Bu layiqli xidmətinə görə Nizami RPİ-nin rəisi, polis polkovniki Ədalət Abbasov tərəfindən ona təşəkkür elan olunub.

Geyindiyi mundiri qürurla daşıyan, gecəli-gündüzlü xidmət aparan və bundan zövq alan gənc həmkarımıza biz də yeni uğurlar arzulayırıq.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# AVRO-2020-yə hazırlaşırıq




**Bakıda "Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası" ilə bağlı tədbir keçirilib.**

Mərasimə AVRO-2020-nin Bakıda keçiriləcək oyunlarına təhlükəsizlik əməliyyatları hazırlığı ilə əlaqədar Avropa Komissiyasının "Tamaşaçı zorakılığı" üzrə Avropa Konvensiyasının daimi komitəsinin Azərbaycanda məsləhət səfərində olan nümayəndə heyəti qatılıb.

Tədbirdə Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Gənclər və İdman Nazirliyi və AFFA-nın əməkdaşları da iştirak ediblər.

*Natiq Cavadov,*
*polis kapitanı*

# HƏR ZAMAN BİRİNCİLİK UĞRUNDA

**Bu gün onların bir devizi var: "Vətəndaşa təhlükədən daha yaxın olmaq". Yarandığı gündən etibar olunanı göz bəbəyi kimi qoruyur, bu anlayışa əməli işləri ilə elə rəng qatırlar ki, mühafizə deyiləndə də ilk yada düşən onlar olurlar.**

Görülən işlərin, aparılan təbliğatın nəticəsidir ki, vətəndaş evini, əmlakını qorumaq üçün yollar aramır və ilk üz tutduğu ünvan polis olur. Bilir ki, etimadı doğrultmaq prinsipi ilə xidmət aparan həmkarlarımız etibarlı da mühafizə edəcəklər. Bütün bunlar öz yerində: Axı, həm də həmkarlarımızın sırasında idman sahəsində, sözün əsl mənasında, külüng vuran oğullar var. Onların adını bu gün hər birimiz yaxşı bilirik- **polis serjantları Razim Hüseynov, Cavid Çələbiyev, Kənan Abdullaxanlı, Azər Nəsibov və digərləri…**



Onların əldə etdikləri uğurlarda baş idarə rəhbərliyinin diqqət və qayğısı var. Yeri gəlmişkən, vətənpərvərlik və zərərli vərdişlərə qarşı mübarizəyə həsr olunmuş idman yarışlarında, tədbirlərdə təşkilatçı kimi rəhbərliyin iştirakı diqqətimizdən yayınmayıb. BMİ-nin idman kompleksi də gənclərimizin üzünə həmişə açıq olub. Bir sözlə, idman onların xidmətinin ayrılmaz hissəsidir. Elə bu yaxınlarda voleybol üzrə keçirilən DİN birinciliyində qalib olmaları bunu sübüt edir. Yarış barədə ilk bələdçimiz BMİ-nin Kadrlar idarəsinin rəisi, polis polkovniki Azad Quliyev oldu.

İdarə rəisi dedi ki, BMİ-nin idmançıları ötən dövr ərzində idmanda da yaddaqalan uğurlara imza atıblar. Bu il Azərbaycan Polisinin 100 illiyinə həsr olunmuş mini-futbol üzrə DİN birinciliyində BMİ-nin komandası ikinci yerin sahibi olmuşdur. Baş idarənin idarə, şöbə və bölmələri arasında idman yarışları demək olar ki, mütəmadi keçirilir.

Elə bu yaxınlarda voleybol üzrə keçirilmiş DİN birinciliyi BMİ-nin idman mücrüsünə daha bir medal əlavə etmişdir. Qazanılan qələbədə isə hamının böyük zəhməti vardı. Finala qalan üç komanda birincilik uğrunda bütün gücünü sərf etmişdi.



"Biz təcrübəmizə və gücümüzə inanırdıq. Komandamızın üzvləri bu yarışa həm psixoloji, həm də fiziki hazırlaşmışdı. Etiraf edək ki, rəqiblərimiz də güclü idi. Yarışa Azərbaycan Milli Voleybol Federasiyasının nümayəndəsi nəzarət edirdi. İlk rəqibimiz Bakı Şəhər Baş Polis İdarəsinin komandası oldu. Onları məğlub etdik. Polis Akademiyasının komandası isə bu yarışda üçüncü oldu",-deyən Azad Quliyev yarışda yüksək peşəkarlıq və ustalıq göstərdiyinə görə **BMİ-nin komandasının üzvü, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun Mühafizəsi üzrə Polis İdarəsinin əməkdaşı, polis serjantı Mixail Solovyovun** təşkilatçılar tərəfindən əlavə diploma da layiq görüldüyünü diqqətimizə çatdırdı.

O, həmçinin qeyd etdi ki, bu il "Ataş hazırlığı"nın yekununda BMİ-nin rəhbərliyi, təcrübəli əməkdaşları, **BMİ Kadrlar İdarəsinin rəisi, polis polkovniki Kamil Abbasov, Kadrlar İdarəsinin baş inspektoru, polis mayoru Nəsimi Quliyev yüksək nəticə göstərmişlər.**

BMİ-də olarkən burdakı tolerant mühit də diqqətimizdən yayınmadı. İdarə rəhbərliyinin yetkililəri ilə görüşdə də bu qənaətə gəldik ki, Azərbaycan adına, polisin nüfuzunun yüksəldilməsi üçün milli kimliyindən asılı olmayaraq, kim uğura imza atırsa, hər zaman diqqət mərkəzində olur. Elə BMİ-nin rəis müavini, polis polkovniki Daşqın Mehdiyevin: "Komandamızın fəxri Mixail Solovyovla görüşüb onunla bağlı da bəzi nüansları bu yazıda qeyd etsəniz, xoş olardı" fikri bunun bariz nümunəsi idi.

Biz də yubanmadan, vaxt itirmədən həmkarımızla görüşdük və bu kiçik qeydləri etdik.

Polis serjantı Mixail Solovyov 1985-ci ildə Saratovda doğulub. Babası hərbçi olduğuna görə həmin il də Bakıya köçüblər. Düz, 10 yaşından voleybolla məşğuldur. 2001-ci ildə 153 saylı məktəbi bitirib və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. Daxili Qoşunlarda hərbi xidmət keçib. 2003-cü ildə voleybol üzrə milli komandanın tərkibində Makedoniyanın Skopiya şəhərində Avropa çempionatının seçmə mərhələsində iştirak edib. Voleybol üzrə yığma komandamızın məşqçisi olub. 2009-cu ildən DİO-da xidmət edir.

"Solovyov yaxşı idmançı olmaqla yanaşı, həm də məsuliyyəti polis əməkdaşıdır. Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır və xidmətdə özünü doğruldur". Bunları da Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun Mühafizəsi üzrə Polis İdarəsinin rəisi, polis polkovniki Canpolad Cabbarov dedi.

*Hafiz Təmirov,*
*polis mayoru*

## DAXİLİ İŞLƏR NAZİRLİYİ
### SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

Instagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFln-vwFvkLMCMGyg2j-w/featured

# POLİS SƏNİ, MƏNİ, BİZİ DÜŞÜNÜR...

**Önümdən səndələyə-səndələyə keçən, üst-başından səfillik yağan birinin arxasınca gedən məktəbli uşaqların dialoqu diqqətimi çəkdi.**

**"Bax, bu gün polislər bizə içkidən, siqaretdən, qəlyandan uzaq durmağı ona görə məsləhət gördülər ki, onun kimi həyat yaşamayaq".**

**Bir anlıq duruxdum. Demək, görülən iş, çəkilən zəhmət hədər deyil. Bizim gələcəyimizi qaranlıqdan işığa çıxarmaq üçün "Əkinçi" babalarımız da, bələcə, maarifləndiriblər. Cəhalətə, mövhumata qarşı həyatları bahasına olsa belə mübarizə aparıblar. Gəncliyimizi və gələcəyimizi qorumaq üçün həmin missiya davam edir.**

Bu gün hər kəs səfərbərdir, əlbəttə ki, ön sıralarda polislərimizi görəndə ümidlənirik. Maarifləndirmə, təbliğat da Vətənə xidmətdir. Narkomaniya, erkən nikah və dini radikalizm barəsində polisin təbliğatı bir an belə səngimir. Məktəblilər, xüsusən də balacalar polisdən qorxmur, onu öz doğması, yaxını bilir. Elə valideynlər də daha övladlarını polislə qorxutmurlar.

Əməkdaşı olduğum Sabunçu RPİ-nin keçirdiyi tədbirlərdə müşahidə etdiyim maraqlı nüanslardan biri də valideynlərin iştirakıdır. Niyə valideynlər? Etiraf edək ki, bəzi bölgələrimizdə və Bakı kəndlərində hələ də qızların təhsil almasına qadağalar var. "Qız nədir, məktəb getdi, oxudu nədir" təfəkkürü ilə yaşayanlar övladlarının gələcəyini sual altında qoyurlar.

Keçirilən tədbirlərdə onlar da maarifləndirililər və bəzən belələri öz övladlarının gələcəyinə biganə yanaşmağın hansı fəsadlara gətirib çıxaracağını anlamağa başlayırlar. Bu yerdə "Millət atası" kimi tarixə düşən, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin bu fikrini sizlərlə bölüşmək istəyirəm: "Anası savadsız olan xalq kordur". Əsri haqlayacaq yaşı olan bu fikir günümüzlə həmahəngdir.

Görülən işlərə nəzər salıb, inamla deyə bilərik ki, polis həm də müəllimdir. DİN rəhbərliyinin pedoqoji təhsilli gənclərin sıramıza qoşulması üçün atdığı addım təqdirəlayiqdir. Çünki bu gənclər uşaq psixologiyasını daha dərindən bilir və onlarla ünsiyyət qurmaqda çətinlik çəkmirlər.

Azyaşlıları, yeniyetmələri, gələcəyimiz olan gənclərin sağlam, vətənpərvər böyüməsi üçün, dünən olduğu kimi, bu gün də zərərli vərdişlərdən çəkindirməyə çalışan polisimiz DİN İdman Cəmiyyətinin qapılarını da onların üzünə taybatay açıb.

Əgər gələcəyimizi sağlam, güvənli və etibarlı əllərdə görmək istəyirsə, o zaman hər birimiz üzərimizə düşən vətəndaş məsuliyyətini dərk etməliyik. Pozulan dünya düzəni, ölkəmizin sərhədlərindən kənarda baş verənlər, qapımızı səssiz döyən narkomaniya SOS siqnalıdır.

*Könül Nəbizadə,*
*Sabunçu RPİ-nin əməkdaşı*

# DÜNYAYA PƏNCƏRƏ

ABŞ Prezidenti Donald Tramp Çikaqoda cinayətkarlığın baş alıb getməsinə son qoyacağını vəd edib və polisin hərəkətlərinə məhdudiyyətləri azaltmağa çağırıb. Ağ Ev rəhbərinin sözlərinə görə, polisin praktikasında "Dayandır və üstündə axtarış apar" qaydasının tətbiq olunması şübhəli şəxsləri dayandırıb onların üzərində axtarış aparmağa və potensial cinayətkarların üstündə olan silahdan istifadə edilənə qədər həmin silahı aşkar etməyə imkan verəcək.

*****

***Almaniyada təxminən 25 il əvvəl bir qadının itkin düşməsinə dair işin təhqiqatı çərçivəsində Titzenze gölünün qurudulması üzrə işlərə başlanılıb. Polis 1993-cü ildə itkin düşmüş qadının qalıqlarının və cinayət alətini gölün dibində tapacağını ehtimal edir.***

***Yerli polisin qiymətləndirməsinə görə, gölün qurudulması 3-5 gün vaxt aparacaq və əməliyyat zamanı qonşuluqda yerləşən Vezer gölünə 35 milyon litr su vurulacaq.***

*****

Hindistanda hava limanlarında xidmət edən polislərə daha az gülümsəmələri üçün xüsusi göstəriş verilib. Ölkədə 60 hava limanının təhlükəsizliyi işçilərindən «dost görünmək əvəzinə daha tədbirli olması» tələb olunub. Sevimli görünməyin təhlükəsizliyi azaldaraq, terror hücumları təhlükəsinə yol açacağına dair narahatlıqla əlaqəli olaraq, «nəzərə çarpan bir gülümsəmə, az gülümsəmə sisteminə» keçiləcəyi qeyd edilib.

*****

***Türkiyənin daxili işlər naziri 635 nazirlik əməkdaşının vəzifədən kənarlaşdırılması barədə sərəncam imzalayıb. İşdən çıxarılan şəxslər terror təşkilatları ilə əlaqədə, narkotiklərin qanunsuz dövriyyəsində, insan alveri və qaçaqmalçılıqda təqsirli bilinirlər.***

*****

ABŞ-ın Minnesota ştatında polis sakinlərə maraqlı xəbərdarlıq edib. Xəbərdarlıq sərxoş bir qrup haqqında olub. Lakin küçədə sərxoş insanlar yox, göyərçin dəstəsi olub. Bildirilir ki, göyərçinlər sərxoşluqdan müvazinətlərini saxlaya bilməyiblər və halsız görünürmüşlər. Hətta sərxoş göyərçinlərin özlərini pəncərələrə və avtomobillərə çırpması barədə polisə şikayətlər də daxil olub. Polis elan edib ki, erkən düşən şaxta, giləmeyvələri adi haldan daha çox fermentləşdirdiyi üçün onları yeyən quşlar keflənirlər.

*Natiq Cavadov*

## Oktyabrın 10-dan 16-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 750 cinayət qeydə alınmış, onların 111-i «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 82 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 211 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 136 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 24 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 9 nəfər ölmüş, 46 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 51 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 178 nəfər saxlanılmışdır.

DİN A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sabunçu RPİ-nin rəisi Eldar İlyasov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi RPİ-nin rəisi Namiq İsmayılov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Əbülfət Rzayev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şamaxı RPŞ-nin rəisi Şahin Mirzəyev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Həsən Şirinova bacısı
**QƏLƏMZƏR xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Gəncə Şəhər Nizami RPİ-nin əməkdaşı Dilarə Ağayevaya anası
**FƏRİDƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:00